**Mehriban Mirqasım qızı İSGƏNDƏROVA**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

# QLOBAL KONTEKSTDƏ RƏQABƏT QABİLİYYƏTLİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİNƏ NƏZƏRİ YANAŞMALAR

**Xülasə**

Tədqiqatın məqsədi – qlobal kontekstdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi problemlərinin nəzəri aspektlərinin tədqiqindən ibarətdir. Müasir şəraitdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi problemləri açıqlanmışdır. Sahibkarlıq fəaliyyətinin mövcud mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Qlobal çağırışlar diqqət mərkəzində saxlanılmaqla, yeni reallıqlar şəraitində rəqabət qabiliyyəti sahibkarlıq fəaliyyətinin inkişaf etdiirlməsi istiqamətləri üzrə nəzəri yanaşmalar ümumiləşdirilmişdir.

Tədqiqatın metodu – baxımından bir qrup metodlardan - elmi abstraksiya, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üzrə görkəmli iqtisadçıların elmi nəzəriyyələrinə və əsərlərinə istinadlar edilmişdir.

Tədqiqatın nəticələri – yeni reallıqlar şəraitində məqalədə aparılmış ümumiləşdirmələrdən və yanaşmalardan rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyəti modelinin formalaşdırılmasında və inkişaf etdirilməsində istifadə edilməsi mümkündür.

**Açar sözlər**: Qlobal çağırışlar, rəqabət, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyəti, sahibkarlıq, sahibkarlığın inkişaf problemləri, sahibkarlığın inkişaf perspektivləri.

**UOT:** 334.772
**JEL:** : L26; M21
**DOI:** https://doi.org/ 10.54414/DKVD5891

## Giriş

Qeyd edək ki, iqtisadi inkişafın əsas aparıcı qüvvələrindən biri sahibkarlıq fəaliyyətidir. Müasir iqtisadiyyat şəraitində sahibkarlığın rolu cəmiyyətin sosial-iqtisadi inkişafının təmin olunmasında həlledici amillərdən biri kimi çıxış edir. Sahibkarlığın effektiv təşkili və inkişafı birbaşa olaraq rəqabət mühitindən və sahibkarlıq subyektlərinin bu mühitə uyğunlaşma səviyyəsindən asılıdır. Rəqabətqabiliyyətli sahibkarlığın formalaşdırılması ölkənin dayanıqlı iqtisadi artımına, innovativ fəaliyyətin genişlənməsinə və yeni iş yerlərinin yaradılmasına zəmin yaradır. Sahibkarlıq fəaliyyəti təkcə iqtisadi artımın hərəkətverici qüvvəsi deyil, habelə yeni texnologiyaların tətbiqi, innovasiyaların təşviqi, məşğulluğun artırılması və sosial rifahın yüksəldilməsi baxımından da böyük önəm daşıyır [1, s. 379]. Bu fəaliyyətin səmərəli və davamlı şəkildə reallaşdırılması isə onun rəqabət qabiliyyətindən asılıdır. Rəqabət qabiliyyətli sahibkarlıq iqtisadiyyatda dinamikliyi, adaptasiya qabiliyyətini və dayanıqlılığı ifadə edir.

Sahibkarlıq fəaliyyəti cəmiyyətin ehtiyac duyduğu məhsul və xidmətləri üzə çıxarır və bu tələbatları ödəmək məqsədilə sahibkarlar müxtəlif müəssisələr təşkil edirlər. Onlar istehsal etdikləri məhsulları və xidmətləri reallaşdıraraq bazara təqdim edirlər. İnsanların ehtiyaclarının qarşılanması onların əsas hədəflərindən biridir və bu məqsədlə sahibkarlar öz müəssisələrini yaradırlar və bu müəssisələr yeni iş yerlərinin əsas mənbəyinə çevrilir, yəni iş axtaran və işləmək istəyən insanlara iş imkanı yaradırlar. Yeni yaradılan iş yerləri isə məşğulluq səviyyəsinin artmasına şərait yaradır [2, s.6]. Bu səbəbdən, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məsələsi həm nəzəri, həm də praktik baxımdan aktual mövzuya çevrilmişdir.

**Rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi problemlərinin nəzəri aspektləri**

Rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məsələləri müxtəlif nəzəri yanaşmalarla izah olunur ki, bunların əsaslarına daxildir: 1. Klassik yanaşma. 2. İnnovativ yanaşma və 3. Menecerial yanaşma. Bu yanaşmaların hər birini daha ətraflı tədqiq edək. Rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması, müasir iqtisadiyyatın əsas dayaq nöqtələrindən biri kimi çıxış edir və bu anlayışın dərin nəzəri təhlili iqtisadi inkişafın əsas mexanizmlərindən birinin başa düşülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyətli olması dedikdə, bazarda mövcud olan digər təsərrüfat subyektləri ilə müqayisədə daha üstün mövqe tutmaq, innovasiyalara açıq olmaq, keyfiyyətli məhsul və xidmətlər təklif etməklə, müştəri tələbatını daha dolğun ödəmək imkanı nəzərdə tutulur. Bu sahədə nəzəri yanaşmalar ilk öncə, iqtisadi məktəblərin və iqtisadçı alimlərin baxışlarında öz əksini tapmışdır. Sahibkarlıq fəlsəfəsinin və iqtisadi nəzəriyyənin ilkin tədqiqatçılarından biri R.Kantolyon sayılır. R. Kantilyonun rəqabət-qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı baxışları əsasən onun iqtisadi nəzəriyyələri və sahibkarlığın rolu kontekstində qiymətləndirilir. O, iqtisadiyyat elminin erkən nümayəndələrindən sayılır və onun sahibkarlıq konsepsiyası klassik iqtisadiyyat nəzəriyyələrinin təməlini qoymuşdur. R.Kantilyonun baxışlarına görə, rəqabət-qabiliyyətli sahibkarlıq fəaliyyətinin əsasını sahibkarın risk götürmə qabiliyyəti, bazar şərtlərinə uyğunlaşması, sərbəst rəqabət mühitində səmərəli fəaliyyət göstərməsi və qiymət mexanizminin effektiv işləməsi təşkil edir. Bu prinsiplər sahibkarlığın davamlı inkişafına və iqtisadiyyatın ümumi rifahına töhfə verir. R. Kantillon və onun fikirlərini davam etdirənlər sahibkarlıq gəlirini risk üçün kompensasiya hesab edirdilər və bu gəlirin avans kapitalı üzrə mənfəət və əmək haqqından mahiyyətcə fərqli olduğunu vurğulayırdılar. Bu baxışdan belə nəticə çıxır ki, sahibkar həm avans kapitalının sahibi, həm də muzdla işləyən menecer kimi sosial mövqeyə malik ola bilər, lakin risk daşıyıcısı kimi onun özünəməxsus rolu mövcuddur və bu rola uyğun olaraq gəlirin məbləği və xarakteri də fərqlənir [3, s.37].

Qeyd edək ki, klassik iqtisadi məktəbin nümayəndələri, o cümlədən A.Smit, D.Rikardo və J.B.Sey sahibkarlığın cəmiyyətin ümumi iqtisadi inkişafında oynadığı rolu vurğulamış və bu fəaliyyəti daha çox bazar mexanizmlərinin effektiv işləməsi baxımından izah etməyə çalışmışlar. A. Smitin rəqabətə əsaslanan sahibkarlıq fəaliyyəti ilə bağlı düşüncələri iqtisadi ideyaların inkişafında önəmli yer tutur. Onun sahibkarlıq və rəqabətə dair baxışlarının əsasını isə “görünməz əl” konsepsiyası təşkil edir. Bu konsepsiyaya əsasən, dövlətin iqtisadi proseslərə müdaxiləsi olmadan bazar mexanizmi fərdi maraqlarla ictimai maraqları uzlaşdıraraq, iqtisadiyyatın daha səmərəli şəkildə inkişafını təmin edə bilər [4, s.9]. Onun fikrincə, fərdi maraqların təmini üçün fəaliyyət göstərən sahibkarlar qeyri-ixtiyari olaraq ümumi iqtisadi rifahın yüksəlməsinə xidmət edirlər. Yəni sahibkar öz mənfəətini artırmaq məqsədilə daha keyfiyyətli, daha münasib qiymətə və daha səmərəli şəkildə məhsul və xidmətlər təklif etməyə çalışır, bu da nəticə etibarilə cəmiyyətin ümumi maraqlarına uyğundur. Bu proses sərbəst bazar mexanizmi və rəqabət sayəsində baş verir. Smit hesab edirdi ki, dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi minimum səviyyədə olmalı, dövlət yalnız ədalətli hüquqi çərçivəni təmin etməli və mülkiyyət hüquqlarını qorumalı, sahibkarlar isə bazarın tələblərinə uyğun şəkildə sərbəst fəaliyyət göstərməlidirlər. A.Smit sahibkarı iqtisadi sistemin əsas hərəkətverici qüvvəsi kimi dəyərləndirirdi. O, sahibkarı risk götürmək, sərmayə yatırmaq, istehsalı təşkil etmək və əmək bölgüsünü reallaşdırmaqla sərvət yaradan əsas fiqur kimi görürdü. Onun fikrincə, əmək bölgüsü məhsuldarlığı artırır və bu da sahibkarlığın inkişafına təkan verir. Bu baxımdan, Smitin əmək bölgüsü nəzəriyyəsi də rəqabətli sahibkarlıq mühitinin təşəkkülündə əhəmiyyətlidir. Əmək bölgüsü nəticəsində ixtisaslaşma baş verir, bu da məhsul və xidmətlərin keyfiyyətini artırır və bazarda daha güclü rəqabətə səbəb olur. Adam Smitə görə, sahibkarlıq fəaliyyətinin cəmiyyət üçün faydalı olması üçün iki əsas şərt mövcuddur. Birincisi, sahibkar şəxsi mənfəət əldə etməlidir, ikincisi isə rəqabət müəyyən vəziyyətlərdə mövcud olmalıdır. A.Smit rəqabətin inkişafını

təşviq edir və böyük inhisarların yaranmasına qarşı çıxırdı. O, hesab edirdi ki, istehlak hər bir istehsal fəaliyyətinin yeganə məqsədi və son nəticəsidir [5, s.35]. A.Smitə görə rəqabət isə bazarda balansı qoruyan əsas mexanizmdir. O qeyd edirdi ki, bazarda bir neçə sahibkar fəaliyyət göstərirsə və bunlar bir-biri ilə rəqabət aparırlarsa, bu, istehlakçının maraqlarına xidmət edir, belə ki, məhsullar ucuzlaşır, keyfiyyət artır, innovasiyalar təşviq olunur. Smit monopoliyalara qarşı idi, çünki o, inhisarın bazar mexanizmini pozduğunu, qiymətləri süni şəkildə yüksəltdiyini və sahibkarlıq təşəbbüsünü zəiflətdiyini düşünürdü. Ona görə, açıq və ədalətli rəqabət mühiti formalaşmalıdır ki, sahibkarlar azad bazarda fəaliyyət göstərərək öz məhsullarını və xidmətlərini inkişaf etdirə bilsinlər. Adam Smitin fikrincə, rəqabət sahibkarlığın təkcə iqtisadi səmərəliliyini deyil, habelə etik əsaslarını formalaşdırır. O, bazarda uğur qazanmaq üçün sahibkarların dürüstlük, etibar və müştəri məmnuniyyəti kimi prinsiplərə əməl etmələrinin vacibliyini vurğulayırdı. Bu baxımdan, onun baxışları yalnız iqtisadi mexanizmlərlə məhdudlaşmır, habelə sahibkarlığın sosial məsuliyyət daşıyan tərəfini ortaya qoyur.

Bunlarla yanaşı, D.Rikardonun iqtisadi baxışları klassik iqtisad məktəbinin əsas sütunlarından biri sayılır və onun fikirləri rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafında önəmli rol oynamışdır. Rikardo bazar iqtisadiyyatının əsas prinsiplərini irəli sürən və dərinləşdirən iqtisadçılardan biri kimi, sahibkarlığın təməlini təşkil edən azad rəqabət, sərbəst bazar münasibətləri, əmək bölgüsü və müqayisəli üstünlüklər kimi anlayışlara xüsusi diqqət yetirmişdir. Onun ideyaları müasir sahibkarlığın təşkili və inkişafına hələ də nəzəri dayaq olaraq qalmaqdadır. O, iqtisadi artımın əsas mənbəyinin sərbəst bazar mühitində fəaliyyət göstərən sahibkarların təşəbbüskarlığı və resursların effektiv bölüşdürülməsi ilə bağlı olduğunu qeyd etmişdir. Rikardo hesab edirdi ki, bazar iqtisadiyyatında sahibkarların rolu məhsul istehsalını təşkil etməklə yanaşı, qiymətlərin formalaşmasında və əmək resurslarının səmərəli istifadəsində də mühümdür. Bu baxımdan, sahibkarlıq fəaliyyətinin rəqabət şəraitində daha effektiv və dayanıqlı olması Rikardonun nəzəri sistemində əsas yer tutur. O, iqtisadi fəaliyyətin səmərəliliyini təmin edən amillər sırasında müqayisəli üstünlüklər prinsipini ön plana çəkmişdir. Rikardoya görə, fərqli ölkə və ya bölgələr, müəyyən məhsul və ya xidmətləri daha aşağı alternativ xərclə istehsal edə bilirsə, o sahələrə yönəlməli və iqtisadi resurslarını həmin istiqamətdə səfərbər etməlidirlər. Rikardonun təklif etdiyi müqayisəli üstünlüklər nəzəriyyəsi təkcə konkret hal üçün deyil, bütün ölkələr üçün izahatını verir [6, s.162]. Bu prinsip yalnız dövlətlərarası ticarət üçün deyil, habelə sahibkarların iqtisadi fəaliyyətini istiqamətləndirən vacib nəzəri əsasdır. Belə yanaşma rəqabət mühitində fəaliyyət göstərən sahibkarların öz resurslarını səmərəli idarə etməsinə və ixtisaslaşmasına şərait yaradır. Nəticədə, bazarda məhsul keyfiyyəti artır, qiymət səviyyəsi rəqabət yolu ilə tənzimlənir. Rikardo kapitalın hərəkətliliyi və gəlirlilik fərqləri üzərində də xüsusi dayanmışdır. O, göstərmişdir ki, kapital həmişə daha yüksək gəlir gətirən sahələrə yönəlir. Bu ideya, sahibkarlıq fəaliyyətində rəqabətin təşviq edilməsi və səmərəliliyin artırılması üçün fundamental prinsip sayılır. Kapitalın sərbəst hərəkəti sahibkarları daha rəqabətli olmağa, innovasiyalara və istehsalın optimallaşdırılmasına vadar edir ki, bu da iqtisadiyyatın ümumi inkişafına təkan verir. Əmək bölgüsü və məhsuldarlığın artması məsələləri də Rikardonun sahibkarlıqla bağlı nəzəri fikirlərində öz əksini tapır. Onun fikrincə, sahibkarlar əmək bölgüsündən və ixtisaslaşmadan istifadə etməklə daha yüksək səmərəliliyə nail ola bilər. Əmək bölgüsü istehsal prosesini daha sistemli və effektiv hala gətirir ki, bu da məhsuldarlığın artmasına və rəqabət üstünlüyünün güclənməsinə səbəb olur. Rikardo bu baxımdan əmək məhsuldarlığını artırmağın və əlavə dəyər yaratmağın sahibkarlıq fəaliyyətinin əsas məqsədlərindən biri olduğunu vurğulamışdır. Bundan əlavə, Rikardo torpaq, əmək və kapitalın gəlir bölgüsü məsələlərini də ətraflı təhlil etmişdir. O göstərmişdir ki, iqtisadi inkişafla birlikdə torpaq sahiblərinin icarə gəliri artır, əmək haqqı isə təzyiq altında qalır, lakin kapital gəliri sabit olaraq qalır. Bu fikir, sahibkarların qarşılaşdıqları iqtisadi çağırışları anlamaq baxımından əhəmiyyətlidir. Rikardo iqtisadi sistemdə gəlirlərin bölgüsünün sahibkarın fəaliyyətinə necə təsir etdiyini araşdıraraq, onların qərarvermə prosesində bu faktorların nəzərə

alınmalı olduğunu qeyd etmişdir. Nəticə etibarilə, D.Rikardonun iqtisadi baxışları rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılmasında və inkişafında nəzəri baza rolunu oynayır. Onun sərbəst ticarət, müqayisəli üstünlüklər, əmək bölgüsü və kapitalın sərbəst hərəkəti kimi prinsipləri müasir sahibkarların strateji qərarlarında önəmli yer tutur. Ricardo göstərmişdir ki, azad bazar mühitində fəaliyyət göstərən sahibkarlar daha rasional davranır, məhsuldarlığı artırır və iqtisadi rifahın yüksəlməsinə töhfə verir. Bu baxımdan onun ideyaları həm keçmiş dövrlərdə, həm də bu günün qlobal iqtisadiyyatında sahibkarlığın inkişafı üçün önəmli nəzəri dayaq olaraq qalır.

Digər tərəfdən, J.B. Sey də sahibkarlıq anlayışına və onun iqtisadiyyatda oynadığı rola xüsusi diqqət yetirmişdir. O, sahibkarı yalnız istehsal faktorlarını bir araya gətirən şəxs kimi deyil, habel' iqtisadi sistemin dinamikliyini təmin edən əsas iştirakçılardan biri kimi qiymətləndirir. J.B. Sey 1810-cu ildə sahibkarlığı, digər iqtisadçılar kimi, riskə gedərək mənfəət qazanmaq məqsədi ilə müəyyən məhsul istehsal edən fəal şəxs kimi təsvir etmişdir. O, sahibkarlıq fəaliyyətini istehsal amillərinin birbaşa və effektiv istifadəsi kimi qiymətləndirmişdir. Sey, sahibkarın mənfəətini davamlı təmin etmək üçün bütün istehsal amillərinin, xüsusilə az gəlir gətirən sahələrdən yüksək gəlirli sahələrə maneəsiz və sərbəst şəkildə hərəkət etməsini təmin edən iqtisadi mühiti, yəni bazar şəraitini ətraflı təhlil etmişdir. Bundan əlavə, o, sahibkarın əldə etdiyi ümumi gəlirlər və bu gəlirlərin sahibkarlıq bacarıqları, peşə təcrübəsi və biliklərinə əsaslanan hissəsini də açıq şəkildə göstərmişdir [7, s.126]. Seyin baxışları bu gün də sahibkarlıq fəaliyyətinin mahiyyətini və rəqabət mühitindəki rolunu anlamaqda aktuallığını saxlayır. J.B.Sey sahibkarlığın iqtisadiyyatdakı rolunu təhlil edərkən, onun əsas vəzifəsinin resursları, yəni torpaq, əmək və kapitalı effektiv şəkildə birləşdirərək məhsul və ya xidmət yaratmaq olduğunu vurğulayırdı. Onun fikrincə, sahibkar iqtisadi dövriyyənin hərəkətverici qüvvəsidir. Bu baxış müasir dövrdə rəqabət qabiliyyətli sahibkarlığın inkişafını izah etmək üçün mühüm nəzəri bazadır. Sey sahibkarı sadəcə passiv icraçı kimi deyil, risk götürən, qərar qəbul edən, innovasiyaları reallaşdıran və bazar tələblərinə çevik reaksiya verən şəxs kimi təqdim edirdi. O, sahibkarın əsas vəzifəsinin bazar ehtiyaclarını düzgün təhlil edərək resursları yönəltmək olduğunu düşünürdü. Bu isə rəqabətli mühitdə sahibkarın uğur qazanmasında əsas şərtlərdən biri hesab edilə bilər. Seyin sahibkara verdiyi önəm onun iqtisadi sistemdəki digər subyektlərdən fərqli olaraq sahibkarlığı xüsusi bacarıq və təşəbbüskarlıq tələb edən fəaliyyət növü kimi dəyərləndirməsinə əsaslanır. O, sahibkarın fəaliyyəti zamanı yalnız texniki biliklərlə kifayətlənmədiyini, habelə intuisiyaya, idarəetmə qabiliyyətinə, riskləri təhlil etmə bacarığına malik olduğunu qeyd edirdi. Bu baxımdan Seyin sahibkarlıqla bağlı fikirləri rəqabət mühitində yeni ideyaların gerçəkləşdirilməsində, bazarda fərqlənməkdə və davamlı inkişafı təmin etməkdə sahibkarın önəmini təsdiqləyir. Rəqabət qabiliyyətli sahibkarlığın inkişafı üçün Seyin yanaşmaları strateji baxımdan da aktuallıq daşıyır. O, sahibkarlığın sadəcə iqtisadi məsələ deyil, habelə sosial və institusional bir proses olduğunu düşünürdü. Sahibkarın cəmiyyətin ehtiyaclarını və gözləntilərini nəzərə alaraq fəaliyyət göstərməsi, məhsul və xidmətlərin keyfiyyətini yüksəltməsi və yeni bazar imkanlarını araşdıraraq iqtisadi artıma təkan verməsi, Seyin baxışlarında öz əksini tapır. J.B. Seyin sahibkarlıq və rəqabətə dair yanaşmaları, müasir dövrdə bazar iqtisadiyyatının inkişafı və sahibkarlığın stimullaşdırılması baxımından olduqca dəyərlidir. Onun sahibkara verdiyi iqtisadi və sosial funksiya, rəqabətli mühitdə sahibkarlığın uğur amillərini daha dərindən başa düşməyə imkan verir.

Ümumilikdə, klassik baxışlar rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətini liberal iqtisadiyyatın vacib elementi kimi dəyərləndirir. Bu yanaşmaya görə, azad bazar münasibətləri və rəqabət mühiti sahibkarın təşəbbüskarlığını stimullaşdırmaqla onun fərdi uğuruna, cəmiyyətin iqtisadi inkişafına xidmət edir. Nəticədə, sahibkarın rəqabət qabiliyyəti bazarın qanunlarına uyğun hərəkət etmək, səmərəli resurs bölgüsü aparmaq və davamlı inkişaf üçün yeniliklərə açıq olmaq kimi fundamental amillər əsasında formalaşır. Rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişafına dair innovativ yanaşmanın tərəfdarlarından olan Y.Şumpeterin baxışları iqtisadiyyatın dinamik və innovativ tərəflərinə xüsusi diqqət yetirir. Onun

fikrincə, sahibkarlar yeni ideyaların, texnologiyaların və məhsulların tətbiqi ilə bazarda inqilabi dəyişikliklər yaradırlar ki, bu da rəqabətin yüksəlməsinə, məhsuldarlığın artmasına və ümumi iqtisadi inkişafın sürətlənməsinə səbəb olur. Şumpeterə görə, sahibkarlıq fəaliyyəti yalnız adi mənfəət əldə etməklə kifayətlənmir. Əksinə, bu fəaliyyət təkrar istehsal zamanı yeni kombinasiyaların yaradılması nəticəsində ortaya çıxan əlavə mənfəətin, yəni sahibkarlıq mənfəətinin əldə olunması ilə xarakterizə olunur [8, s.173]. Şumpeterçi yanaşmada rəqabət qabiliyyətli sahibkarlığın əsas xüsusiyyəti innovasiya ilə bağlıdır. Sahibkar sadəcə mövcud bazarda rəqabət aparan deyil, habelə bazarı yenidən qurmaq və onu dəyişdirmək potensialına malik olan bir agentdir. Bu baxımdan, rəqabət qabiliyyəti sadəcə qiymət və məhsul keyfiyyəti ilə deyil, eyni zamanda yeni məhsullar, xidmətlər və proseslərin yaradılması ilə ölçülür. Belə ki, sahibkarlar bazarda mövcud durumu sarsıdır, köhnə üsulları ləğv edir və yeniliklər əsasında rəqabət üstünlüyü qazanırlar. Bundan əlavə, Şumpeterçi baxış sahibkarlıq fəaliyyətində fərdi təşəbbüs və risk qəbulunu önə çıxarır. Sahibkar yalnız ideya və innovasiya sahibidir, habelə onun reallaşdırılması məqsədilə lazımi resursları toplamaq, bazar şəraitinə uyğunlaşmaq və mövcud çətinlikləri aşmaq bacarığını nümayiş etdirir [9]. Bu da onu dinamik, çevik və bazar meyllərinə tez reaksiya verən şəxsə çevirir ki, bu xüsusiyyətlər rəqabət qabiliyyətli sahibkarlığın inkişafı üçün vacibdir.

Şumpeter sahibkarı novator adlandırmış, əsasən istehsal amillərinin yeni birləşmələrini yaratmaq və nəticədə iqtisadi inkişafı təmin etmək qabiliyyətini önə çıxarmışdır. Onun fikrincə, sahibkarın vəzifəsi əvvəlcədən mövcud olan proseslərə uyğunlaşmaq yox, onlara qarşı çıxmaq, yenilikləri aşkar edib tətbiq etmək və fəaliyyətini öz müəyyən etdiyi yeni proseslər üzərində qurmaqdır [10, s.9]. Şumpeterçi yanaşma sahibkarlıq fəaliyyətinin sadəcə iqtisadi proses kimi deyil, habelə sosial və mədəni proses kimi anlaşılmasını tələb edir. Sahibkarın rolu təkcə biznes qurmaq yox, həm də iqtisadi mühitin və cəmiyyətin inkişafında aktiv dəyişdirici qüvvə olmaqdır. Bu baxımdan, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişafı üçün yalnız maddi amillər deyil, eyni zamanda intellektual kapital, yaradıcılıq mühiti və innovativ düşüncə önəmli rol oynayır. Beləliklə, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı Şumpeterçi nəzəriyyə çərçivəsində innovasiyanın, yaradıcı təşəbbüsün, risk qəbulunun və iqtisadi sistemdə fasiləsiz yenilənmənin nəticəsi kimi görünür. Bu isə sahibkarlığı iqtisadi inkişafın və sosial dəyişikliklərin əsas katalizatoru kimi təqdim edir.

**Rəqabət qabiliyyətli sahibkarlıq modelinin inkişaf etdirilməsinin nəzəri məsələləri**

Qeyd edək ki, rəqabətqabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı tədqiqatlarınn digər istiqaməti avstriyalı iqtisadçı L.F.Mizesin fəaliyyəti ilə bağlı olmuşdur. O göstərdi ki, bazar prosesinin hərəkətverici qüvvəsi və bazar tarazlığının səbəbkarı mənfəət əldə etməyə çalışan sahibkarlardır. Sahibkarların hər biri real iqtisadiyyatı səciyyələndirən müxtəlif biliklərə və məlumat massivinə malikdir. L.F.Mizes təklif edirdi ki, bazar iqtisadiyyatı şəraitində satıcılar öz məhsullarının dəyərinin rəqiblərin qiymətləri ilə müqayisəsi əsasında qiymətləndirmək və satışını planlaşdırmaq məcburiyyətindədirlər. Sahibkarların formalaşdırdığı hər bir layihə mövcud xərcləri və gözlənilən nəticələri nəzərə almalıdır. Yəni, sahibkarlar öz hərəkətlərinin nəticələrini düzgün proqnozlaşdırmalıdırlar, əks halda fəaliyyətlərini davam etdirə bilməyəcəklər [11, s.545]. Rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişafına dair digər bir yanaşma menecerial yanaşmadır. Bu ynaşma sahibkarlığın iqtisadi sistemdə tutduğu yer və onun effektiv idarə olunması məsələlərini müxtəlif nəzəri prizmalardan araşdırır. Bu mövzuya yanaşan mütəxəssislər rəqabət qabiliyyətinin əsasını təşkil edən amilləri, sahibkarlığın strateji idarəetmə, innovasiya və bazar dinamikaları ilə əlaqəsini dərinləşdirmişlər. A.Tyunen və F.Naytın fikirlərinə əsasən, sahibkar bazar mühitindəki qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərə bilən bir şəxs kimi dəyərləndirilir. Onların yanaşmasına görə, belə şəxslər qeyri-standart qərarlar vermək bacarığına və həmin qərarların nəticələrinə görə iqtisadi məsuliyyət daşımaq qabiliyyətinə malik olan xüsusi fərdi xüsusiyyətlərlə seçilirlər [12, s.22].

Bir çox müəlliflərə görə, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyəti bazar şəraitinə çevik

reaksiya vermək bacarığı və davamlı inkişaf perspektivini təmin etməsi ilə fərqlənir. Məsələn, M.Porter rəqabət üstünlüyünün əldə olunması üçün şirkətlərin dəyər zəncirini optimallaşdırmasının vacibliyini vurğulayır. Onun fikrincə, rəqabət qabiliyyətli sahibkarlıq bazar strukturunun təhlilindən başlayaraq, öz resurslarını və imkanlarını məqsədyönlü şəkildə formalaşdırmalı, həmçinin rəqiblərdən fərqlənən unikallığa malik olmalıdır. Bu yanaşma menecerlərə strateji qərarlar qəbul edərkən rəqabət mühitini dəqiq təhlil etməyi tövsiyə edir. M. Porterin geniş rəqabət nəzəriyyəsi bazarda firmanın rəqabət üstünlüyünü yalnız birbaşa rəqiblərlə deyil, həm də həmin bazarda fəaliyyət göstərən əvəzləyici məhsullar, müştərilər və təchizatçılar kimi rəqabət qüvvələrinin mövqeyindən asılı olaraq həyata keçirə biləcəyini əsas götürür [13, s.8]. P.Drukker sahibkarlığı "imkanları görmək və onları dəyərləndirmək sənəti" kimi dəyərləndirərək, rəqabət qabiliyyətinin innovasiya ilə sıx bağlı olduğunu qeyd etmişdir. Onun nəzərindən, menecerlər sahibkarlıq fəaliyyətində davamlı yeniliklər tətbiq etməklə bazarda möhkəm mövqe tutmalı və rəqabətdən üstün çıxmalıdırlar. Bu isə yalnız texnoloji yeniliklərlə məhdudlaşmır, həmçinin məhsulun, xidmətin, idarəetmənin və bazarlama strategiyalarının da daim təkmilləşdirilməsini nəzərdə tutur.

Ümumilikdə, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişafı kompleks və çoxsahəli yanaşma tələb edir. Menecerlər üçün əsas çağırış bazar şəraitini dəqiq araşdırıb, strateji planlar hazırlamaq, innovativ təşəbbüsləri dəstəkləmək, insan resurslarına investisiya qoymaq və çevik idarəetmə prinsiplərini tətbiq etməkdir. Bu baxımdan, rəqabət qabiliyyətinin yüksəldilməsi sahibkarlığın uğurlu inkişafının, həmçinin ölkə iqtisadiyyatının dayanıqlı və davamlı irəliləyişinin əsas amili kimi çıxış edir. Rəqabət qabiliyyətinin formalaşmasında institutların rolu da nəzəri müstəvidə mühüm yer tutur [14, s. 31]. İnstitusional iqtisadiyyata görə, sahibkarlığın inkişafı və onun rəqabət üstünlüyü əldə etməsi üçün hüquqi və inzibati mühit, mülkiyyət hüquqlarının qorunması, effektiv vergi və tənzimləmə siyasətləri olduqca əhəmiyyətlidir. Belə bir mühit sahibkara risk almaq və bazara çıxmaq üçün daha əlverişli şərait yaradır. Bununla yanaşı, informasiya asimmetriyasının aradan qaldırılması, şəffaflıq və bazar mexanizmlərinin səmərəli fəaliyyəti də rəqabət qabiliyyətinin artmasına səbəb olur.

Müasir dövrdə rəqabət qabiliyyətli sahibkarlığın əsas göstəricilərindən biri də çeviklik və dəyişən şəraitə adaptasiya qabiliyyətidir [15, s. 73]. Bu xüsusiyyətlər xüsusilə sürətlə dəyişən texnoloji mühitdə və qlobal iqtisadi təzyiqlər fonunda aktuallıq qazanır. Sahibkar yalnız mövcud bazar tələblərinə cavab verməklə kifayətlənməməli, həm də gələcək trendləri öncədən dəyərləndirib uyğun strategiyalar formalaşdırmalıdır. Bu isə strateji idarəetmə yanaşmalarının və analitik qərarvermə alətlərinin tətbiqini zəruri edir. Sosial-iqtisadi mühitin dəyişməsi, rəqəmsallaşma, rəqəmsal platformaların yayılması da nəzəri baxımdan sahibkarlığın yeni formalarını gündəmə gətirmişdir. Startap mədəniyyəti, rəqəmsal biznes modelləri və platforma əsaslı iqtisadiyyat rəqabət qabiliyyətli sahibkarlığın yeni müstəvilərdə formalaşmasına səbəb olur. Bu dəyişikliklər bir tərəfdən yeni imkanlar yaratdığı halda, digər tərəfdən də sahibkarlardan daha yüksək səviyyəli bilik, bacarıq və çeviklik tələb edir.

**Nəticə**

Beləliklə, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılması çoxölçülü və kompleks bir prosesdir və bunlarla bağlı bir qrup məsələləri ümumiləşdirmişik:

– İlk növbədə rəqabət qabiliyyətli sahibkarlıq, həm mikroiqtisadi səviyyədə sahibkarın şəxsi təşəbbüsü və strateji qərarları ilə, həm də makroiqtisadi mühit və dövlətin iqtisadi siyasətləri ilə sıx bağlıdır.

– Bu anlayışın nəzəri əsasları müxtəlif iqtisadi məktəblərin baxışlarında öz əksini tapsa da, onların ortaq nöqtəsi sahibkarlığın iqtisadi inkişafda həlledici rol oynadığına dair ümumi qənaətdir.

– Sahibkarlıq fəaliyyəti təkcə iqtisadi mənfəət əldə etmək deyil, habelə strateji planlaşdırma, risklərin idarə olunması və innovativ yanaşmaların tətbiqi ilə bağlıdır.

– Nəticə etibarilə, rəqabət qabiliyyətli sahibkarlığın inkişafı iqtisadi sistemin bütövlükdə dinamikliyini və effektivliyini artırır. Bu baxımdan, iqtisadi siyasət formalaşdırılarkən sahibkarlığın dəstəklənməsi və onun rəqabət

qabiliyyətinin yüksəldilməsi xüsusi prioritet kimi nəzərə alınmalıdır. Elmi yanaşmalar, praktiki mexanizmlər və davamlı strateji planlaşdırma bu sahənin davamlı inkişafına zəmin yaradır. Əsas məqsəd isə sahibkarların müstəqil şəkildə rəqabət mühitində dayanıqlı və innovativ fəaliyyət göstərmələrini təmin etməkdir və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Alguliyev, R.M., Aliyev A.G., Aliyev Sh.T., Shahverdiyeva R.O. Development of information support systems for management of innovative structures / The 8th IEEE International Conference on Application of Information and Communication Technologies (AICT2014), Astana, 2014. – 378-382.
2. Məhərrəmova R., Musayeva S. Sahibkarlıq. Bakı, 2019, 70 s.
3. Столбова, О.Г. Экономическая сущность и основные тенденции развития предпринимательской деятельности / О.Г. Столбова, Р.Р. Версоцкий // Экономика и управление народным хозяйством (Санкт-Петербург). – 2022. – № 18(20). – С. 36-48.
4. Смит А. Исследование о природе и причинах богатства народов / А. Смит — «Эксмо», 1776 — (Великие экономисты), 97 с.
5. Колядин, И.О. Учения о предпринимательстве / И.О. Колядин, Н.Н. Сороквашин, И.Н. Богданова // Поиск (Волгоград). – 2015. – № 1(1). – С. 35-38.
6. Lungu, A.E. The entrepreneurship's crucial role in international trade. DIEM (1) 2020, pp.161-167.
7. Əliyev, H.M. Sahibkarliq fəaliyyətinin konseptual əsasları və Azərbaycan reallığı. UNEC-in Elmi Xəbərləri, İl 7, Cild 7, oktyabr-dekabr, 2019, s.122-135.
8. Мазилкина, Ж.В. Теории предпринимательства / Ж.В. Мазилкина // Инновационная экономика: перспективы развития и совершенствования. – 2015. – № 2(7). – С. 171-173.
9. Piana, V., Aliyev, Sh.T. and etc. 2009 – Innovative Economic Policies for Climate Change Mitigation. Economics Web Institute, Rome.
10. Əhmədzadə H.Ə. İran Islam Respublikasinda regional sahibkarlığın inkişafının maliyyə problemləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 24 s.
11. Пиньковецкая, Ю.С. Эволюция взглядов на предпринимательство и предпринимателей в научных исследованиях // Вестник Кемеровского государственного университета. Серия: Политические, социологические и экономические науки. 2020. Т. 5. № 4. – с. 543–556.
12. Вотчель, Л.М. Теории предпринимательства: современный подход / Л.М. Вотчель, В.В. Викулина // Современный менеджмент: теория и практика: материалы VIII Всероссийской (национальной) научно-практической конференции, Магнитогорск, 26–27 мая 2023 года. – Магнитогорск: Магнитогорский государственный технический университет им. Г.И. Носова, 2023. – С. 21-24.
13.Qarayev, R.H. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişaf strategiyasının yaradılması mexanizmləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə, 2022, 31 s.
14. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, – 2017. № 03, – s. 26-40.
15. Алиев, Ш.Т. Актуальные проблемы и перспективы экономики Азербайджана на рубеже XXI века // Журнал «Финансовая экономика», Москва, РФ, 2021, №09. – с.71-76. http://arhvak.minobrnauki.gov.ru/web/guest/87.

**Мехрибан Миргасым ИСКЕНДАРОВА**
докторант Азербайджанского
Университета Кооперации,

## ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К ПРОБЛЕМАМ РАЗВИТИЯ КОНКУРЕНТОСПОСОБНОЙ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ГЛОБАЛЬНОМ КОНТЕКСТЕ

**Резюме**

**Целью исследования** является изучение теоретических аспектов проблем развития конкурентоспособной предпринимательской деятельности в глобальном контексте. Раскрываются проблемы формирования и развития конкурентоспособной предпринимательской деятельности в современных условиях. Обосновывается важность совершенствования действующих механизмов регулирования предпринимательской деятельности. Обобщены теоретические подходы к развитию конкурентоспособной предпринимательской деятельности в условиях новых реалий с учетом глобальных вызовов.

**Метод исследования** – в рамках группы методов – использовался метод научной абстракции, сравнения и обобщения. При этом использовались ссылки на научные теории и труды видных учёных-экономистов по вопросам развития конкурентоспособной предпринимательской деятельности.

**Результаты исследования** – в условиях новых реалий обобщения и подходы, сделанные в статье, могут быть использованы при формировании и развитии модели конкурентоспособной предпринимательской деятельности.

**Ключевые слова:** Глобальные вызовы, конкуренция, конкурентная предпринимательская деятельность, предпринимательство, проблемы развития предпринимательства, перспективы развития предпринимательства.

**Mehriban Mirgasim ISGANDAROVA**
doctoral student of Azerbaijan
University of Cooperation

## THEORETİCAL APPROACHES TO THE PROBLEMS OF DEVELOPİNG COMPETİTİVE ENTREPRENEURİAL ACTİVİTY İN A GLOBAL CONTEXT

**Summary**

**The purpose of the study** is to study the theoretical aspects of the problems of developing competitive entrepreneurial activity in a global context. The problems of forming and developing competitive entrepreneurial activity in modern conditions are explained. The importance of improving the existing mechanisms of entrepreneurial activity is substantiated. Theoretical approaches to the development of competitive entrepreneurial activity in the context of new realities are summarized, keeping global challenges in focus.

**The research method** – in terms of a group of methods – scientific abstraction, comparison and generalization methods were used. Along with these, references were made to the scientific theories and works of prominent economists on the development of competitive entrepreneurial activity.

**The results of the study** – in the conditions of new realities, the generalizations and approaches made in the article can be used in the formation and development of a competitive entrepreneurial activity model.

**Key words:** Global challenges, competition, competitive entrepreneurial activity, entrepreneurship, problems of entrepreneurship development, prospects of entrepreneurship development.